# ATƏT iflic vəziyyətindədir

**"Prezident İlham Əliyevin ATƏT-in Minsk qrupu və ona yedək strukturların ləğvi ilə bağlı tələbi tamamilə əsaslı olmaqla yanaşı, regionda yaranmış reallıqdan qaynaqlanır".**



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Sahib Alıyev deyib. Onun sözlərinə görə, hətta Ermənistan baş naziri də Azərbaycana qarşı hər hansı torpaq iddiaları olmadığını bildirirsə, Qarabağın Azərbaycanın tərkib hissəsi olduğunu etiraf edirsə, Minsk qrupuna həmsədrlik edənlərdən biri, konkret olaraq Rusiya Qarabağ məsələsinin başa çatdığını qeyd edirsə, bəs guya bu məsələnin həlli ilə məşğul olmalı olan Minsk qrupuna nə ehtiyac var? Həm də söhbət o strukturdan gedir ki, vaxtında münaqişənin həlli istiqamətində, demək olar ki, heç bir addım atmayıb.

Sahib Alıyev bildirib ki, əgər zamanında ATƏT-in Minsk qrupu beynəlxalq normalara əsaslanaraq prinsipiallıq göstərsə və Ermənistanın işğalçılığına yanaşmada qətiyyətli mövqe sərgiləsəydi, onda Avropada İkinci Dünya savaşından sonra ən böyük toqquşma baş verməzdi. Burada söhbət Ukrayna ilə Rusiya arasındakı müharibədən gedir. ATƏT-in Minsk qrupunun niyyətinin heç də münaqişəni həll etmək olmadığı həmsədrlərdən biri olan Amerika Birləşmiş Ştatlarının təmsilçisi Riçard Hoqlandın bir etirafında açıq-aşkar öz əksini tapıb. Xatırlayırsınızsa, təxminən 4 il əvvəl Hoqland yazmışdı ki, Minsk qrupu həmsədrləri olaraq onların işi-gücü yalnız beşulduzlu hotellərdə qalmaq, bahalı mini barlarda, qonaqlıqlarda vaxt keçirmək olub. Elə indi də Minsk qrupu həmsədrlərinin, xüsusilə də ABŞ və Fransanın davranışları ondan xəbər verir ki, onlar münaqişənin həllindən çox narahatdırlar".

Deputatın sözlərinə görə, bütün bunlara nəzər saldıqda tam aydın olur ki, Azərbaycan Prezidentinin təklif və tələbi tam reallığı əks etdirir: "Ümumiyyətlə, bu gün nəinki Minsk qrupu, elə ATƏT-in özü bir institut olaraq böyük dövlətlərin arasındakı ziddiyyətlər nəticəsində iflic vəziyyətə düşüb. Səhv etmirəmsə, 2010-cu ildə Almatı sammitindən sonra ATƏT ölkələrinin dövlət başçılarının görüşü keçirilmir. Yəni bu, bir daha ATƏT-in özünün nə vəziyyətdə olduğunu göstərir və əgər Minsk qrupundakılar sivilizasiyalararası qarşıdurma məntiqindən çıxış edərək ayrıca xətlər çəkərək davranış sərgiləməsəydilər, nə ikinci Qarabağ savaşına ehtiyac qalacaqdı, nə də dünya Rusiya-Ukrayna savaşı ilə üzləşəcəkdi. Bu qurumun və onun yedək strukturlarının fəaliyyətsizlikləri və prinsipsizlikləri ona aparıb çıxardı ki, ATƏT-in əhatə etdiyi məkanda daha qanlı münaqişə ocağı yarandı".

Sahib Alıyev yekunda bildirib ki, de-fakto mövcud olmayan bir qrupun adının qalması gülüncdür: "Ona görə də Prezident İlham Əliyevin bununla bağlı tələbi olmasaydı belə, əgər ATƏT-dəkilər özlərinə hörmət edirlərsə, bu məsələni qaldırıb Minsk qrupunu və digər yedək strukturları ləğv etməli idilər".

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 21 fevral, № 39.- S.5.